www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-14 (1818) 29 avqust 2025-ci il



## Mehriban Əliyeva - Müasir Azərbaycan qadınının parlaq və qürurverici siması

**Sərhəd tanımayan xeyirxahlığı və nəcibliyi ona yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində də böyük rəğbət və sevgi qazandırıb**

səh. 2

### Məzunumuz beşinci “Yüksəliş” müsabiqəsinin qalibi olub

səh. 3

### Türkiyəli tələbələr ATU-da klinik təcrübə proqramını başa vurub

səh. 4

### Əməkdaşımız Türkiyənin nüfuzlu media qurumlarında olub

səh. 5



### Bu ilki qəbul imtahanının liderləri ATU-nu seçdi

700 bal toplayan Orxan Abdulsəmədli və Sona Nurməmmədli universitetimizdə təhsil alacaqlar

səh. 3

### Tibb bacısı həkimin köməkçisi deyil

*Fəxriyyə Məmmədova: ATU-nun bu ixtisas üzrə məzunları iki üstünlük qazanır: doktorantura təhsili ala bilmək və müəllim kimi işləmək*

səh. 4

### Tibdə nanotexnologiyanın artan rolu

*Nanotəbabət həkimlərin qarşısında yeni üfüqlər açır*

səh. 6



### Zirvələri fəth edən tələbəmiz

Çətinliklər, xəsarətlər, hətta ölüm təhlükəsi də Fidan Hacıyevanı öz yolundan döndərə bilməyib

səh. 7

# Mehriban Əliyeva - Müasir Azərbaycan qadınının parlaq və qürurverici siması

## Sərhəd tanımayan xeyirxahlığı və nəcibliyi ona yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində də böyük rəğbət və sevgi qazandırıb

**Vətənə və xalqa xidmət ideyalarını həyat amalına çevirən, nəcibliyi və xeyirxah əməlləri ilə milyonların rəğbətini qazanan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva müasir dövrümüzün ən nüfuzlu ictimai-siyasi xadimlərindən biridir. Onun mərhəmət, şəfqət və humanizmə əsaslanan fəaliyyəti milli-mənəvi dəyərlərin qorunmasına, Azərbaycan cəmiyyətinin sosial rifahının yüksəldilməsinə xidmət edir.**

İslahatların reallaşması, milli mədəniyyətimizin dünyada təbliği, təhsil və səhiyyə sahəsində genişmiqyaslı layihələrin həyata keçirilməsi, eləcə də şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğı onun fəaliyyətinin əsas istiqamətlərindəndir. Vətən müharibəsi zamanı Ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıq duyğuları ilə xatırlanır. Xalqımızın sosial rifahına hesablanan bir çox layihələrin müəllifi olan Mehriban Əliyeva Birinci xanım adını şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir.




AZƏRTAC Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 26 avqust doğum günündə ictimai-siyasi fəaliyyətinin əsas məqamlarına nəzər salıb.

Azərbaycan xalqının böyük sevgisini qazanmış Mehriban xanım bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı kimi onunla çiyin-çiyinə dayanaraq Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edir. Onun Vətən və xalq qarşısındakı ən önəmli xidmətlərindən biri də Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsi sahəsində göstərdiyi ardıcıl səylər və reallaşdırdığı çoxsaylı layihələrdir. Sərhəd tanımayan xeyirxahlığı və nəcibliyi Mehriban Əliyevaya yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində də böyük rəğbət və sevgi qazandırıb. O, Azərbaycanda təhsil, mədəniyyət və səhiyyənin inkişafına verdiyi töhfələrlə yanaşı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində də yorulmadan çalışır. Mehriban xanımın fəaliyyəti müasir Azərbaycan qadınının parlaq simasını dünyaya nümayiş etdirir və gələcək nəsillər üçün nümunəvi örnək kimi dəyərləndirilir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının həyata keçirilməsində və onun zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması da bilavasitə Fondun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. Fond, həmçinin Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun yüksəldilməsində fəal iştirak edir.

Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Fond onun nəcib əməl və humanist prinsiplərini əks etdirir. Əsasında mərhəmət, şəfqət və xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu artıq 21 ildir ki, öz prinsiplərinə sadiq qalaraq təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Bu təşəbbüslər cəmiyyətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir, çünki Azərbaycan xalqı Fondun inkişafa xidmət edən uğurlu layihələrinə və Birinci vitse-prezidentin humanist, vətənpərvər və nümunəvi fəaliyyətinə güvənir.

Mehriban xanım, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfələr verir. Artıq 20 ildən çoxdur ki, Azərbaycan tarixini və mədəni irsini, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün yorulmadan fəaliyyət göstərir. Onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, “Xınalıq və Köç yolu mədəni landşaftı”, eyni zamanda, Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, “Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti”, “Dədə Qorqud irsi”, Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya salınıb. Eyni zamanda, Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib. 2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir. Mehriban xanımın o vaxt dediyi sözlər yada düşür: “Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam”.

Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və öhdəliklər götürən Birinci vitse-prezident Mehriban xanım Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldur. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət və mehribanlıq meyarlarını əsas götürür, fəaliyyəti məhz bu prinsiplər üzərində qurur və milli-mənəvi dəyərləri daim uca tutur. Onun ömür yolu sözün əsl mənasında Vətənə və xalqa xidmət nümunəsidir.

Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin və qazilərin problemlərinin həlli xüsusi yer tutur. Yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni məhz qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etməsi bu diqqətin bariz nümunəsidir. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlanıb və real işlərə başlanılıb. Qısa müddət ərzində yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb, onların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb.

Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin



sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib.

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, müharibədən sonra isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm “Xarıbülbül” Musiqi Festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur.



Eyni zamanda, Mehriban xanımın təşəbbüsü olan “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində ölkə üzrə çoxsaylı məktəb binaları inşa olunub və yenidən qurulub. “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı çərçivəsində isə bir sıra uşaq müəssisələri əsaslı təmir edilərək müasir tələblərə uyğunlaşdırılıb.

Əhalinin sağlamlığı məsələsi də Mehriban Əliyevanın daim xüsusi diqqət göstərdiyi sahələrdəndir. Onun təşəbbüsü ilə reallaşdırılan “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə”, “Tibb müəssisələrinin yenidən qurulması və inşası” kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub.

Azərbaycanın birinci xanımının tapşırığına əsasən, aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu bu istiqamətdə mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Mehriban xanım Əliyeva öz xeyriyyəçilik fəaliyyəti ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Artıq ictimai həyatımızda xüsusi yer tutan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf etməkdə və genişlənməkdədir.

Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində də Mehriban xanımın təşəbbüsü ilə məqsədyönlü iş aparılır. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb.

Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi “Eurovision” beynəlxalq mahnı müsabiqəsi, Formula 1, Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları birinci xanım Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığını açıq şəkildə göstərdi. Bu mötəbər beynəlxalq tədbirlərin mükəmməl təşkili hətta inkişaf etmiş ölkələr tərəfindən də böyük heyranlıqla qarşılandı. Təsadüfi deyil ki, Mehriban xanım idman aləmində və “Ədalətli oyunlar” prinsipinin təbliğində nümunəvi fəaliyyətinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin “Xüsusi xidmətlərə görə” medalına layiq görülüb.

Bu cür uğurla ev sahibliyi etdiyimiz tədbirlər sırasında COP29-u da qeyd etmək olar. Həmin tədbir çərçivəsində birinci xanımların iştirakı ilə “Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində” mövzusunda konfrans keçirilib. Mehriban Əliyevanın təşəbbüsü və iştirakı ilə təşkil olunan bu konfrans gənclərin ekoloji maariflənməsi və iqlim dəyişikliyinə qarşı mübarizədə aktiv rol almaları üçün əhəmiyyətli platforma yaradıb.

Birinci xanımın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeni, eləcə də “Qızıl ürək” beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın “Şərəf Legionu” ordeni, İtaliyanın “Xidmətlərə görə” Böyük Xaç Kavaleri ordeni, Polşanın “Böyük Komandor Xaçı” ordeni, Rusiyanın “Dostluq” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır.

# Məzunumuz beşinci “Yüksəliş” müsabiqəsinin qalibi olub

**İyulun 25-də ADA Universitetində beşinci “Yüksəliş” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Qaliblərin arasında Azərbaycan Tibb Universitetinin məzunu, Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin poliklinikasının rəisi Ramil Hüseynzadənin də adı var.**



Mərasimdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, “Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, Prezidentin köməkçisi, “Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin üzvü Anar Ələkbərov, səhiyyə naziri Teymur Musayev, mədəniyyət naziri Adil Kərimli, ADA Universitetinin rektoru Hafiz Paşayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev, eləcə də ekspertlər və mətbuat nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Ramil Hüseynzadə 695 balla respublika ikincisi olaraq qəbul olunduğu ATU-nu 2017-ci ildə fərqlənmə diplomu ilə bitirib. O, rezidenturaya qəbul imtahanında yüksək nəticə göstərərək psixiatriya ixtisasına daxil olub.

2017-2025-ci illərdə pedaqoji fəaliyyətlə məşğul olan R.Hüseynzadə tibbi fənləri tədris edib. Eyni zamanda, Türkiyədə Ondokuz Mayıs Universitetində ixtisasartırma kurslarında iştirak edib, həmçinin bir neçə tibbi konqresin təşkilatçısı olub.

Peşəkar fəaliyyəti ərzində müxtəlif səhiyyə müəssisələrində (Respublika Neyrocərrahiyyə Xəstəxanası, Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası, Lənkəran şəhər Psixiatriya Xəstəxanasında) çalışıb. 2025-ci ilin iyun ayında məzunumuz Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin poliklinikasının rəisi vəzifəsinə təyin olunub.

**Bu il 2 abituriyent - Orxan Abdulsəmədli və Sona Nurməmmədli qəbul imtahanında 700 bal toplayıblar. AzEdu.az ixtisas seçiminin nəticələri ilə bağlı hər iki tələbə ilə əlaqə saxlayıb, təəssüratlarını öyrənib.**

# Bu ilki qəbul imtahanının liderləri ATU-nu seçdi

## 700 bal toplayan Orxan Abdulsəmədli və Sona Nurməmmədli universitetimizdə təhsil alacaqlar





Orxan Abdulsəmədli Azərbaycan Tibb Universitetinin Müalicə işi (tədris ingilis dili üzrə) ixtisasına qəbul olub: “Maksimum nəticə göstərdiyim üçün ali məktəbə qəbul olacağımı bilirdim. Yeni ixtisas seçiminin nəticələri mənə sürpriz olmadı.

Ailə üzvlərimlə sevincimi bölüşdüm. Tələbə adını qazanmaq çox gözəl hissdir. Çox sevindim. Təhsilimi davam etdirib peşəkar həkim olmaq istəyirəm”.

700 bal toplayan digər tələbə Sona Nurməmmədli isə ATU-nun Tibb ixtisasına qəbul olduğunu bildirib: “Əslində 9-cu sinifdən sonra valideynlərimin və müəllimlərimin dəstəyi ilə ixtisasımı müəyyənləşdirmişdim. Tibb ixtisası üzrə təhsil almaq qərarına gəlmişdim. Bu sahəyə böyük marağım var. 700 bal topladığımı öyrəndiyim an keçirdiyim sevinc hisslərini, istədiyim ixtisasa qəbul olunduğumu biləndə bir daha yaşadım. Təbii ki, ailə üzvlərim də çox sevindilər. İlk növbədə ali təhsilimi mükəmməl şəkildə almaq istəyirəm. Daha sonra rezidentura təhsilini xaricdə davam etdirməyi düşünürəm. Lakin bu barədə tam dəqiq qərar verməmişəm. Vətənimə layiqli savadlı kadr olmaq istəyirəm.

Abituriyentlərə tövsiyə edirəm ki, çətinliklərə baxmayaraq heç vaxt məqsədlərindən dönməsinlər. Təbii ki, bu yol onlara çətin görünə bilər. Amma əsas odur ki, qarşılarında məqsədləri olsun. Mütləq sistemli şəkildə çalışsınlar. Həmçinin istirahətlərinə də vaxt ayırsınlar”.

# Azərbaycan və Çin onkoloqlarının beynəlxalq konfransı keçirilib

## Nigar Mehdiyeva: Süd vəzi xərçəngi ilə mübarizə sahəsində əməkdaşlıq hər iki ölkə üçün faydalı olacaq

**İyulun 15-də Yeni Klinikada “Süd vəzi xərçəngi müalicəsində sübutlu təbabətin və multidisiplinar əməkdaşlığın inkişafı” adlı beynəlxalq konfrans keçirilib. Konfrans Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası, Tianjin Anti-Kanser Assosiasiyası, Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası, Çinin Tianjin Tibb Universitetinin Xərçəng institutu və xəstəxanasının təşkilatçılığı ilə baş tutub.**



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu ehtiramla yad edilib. Dövlət Himnimiz səsləndirildikdən sonra tədbiri Onkoloji Klinikanın baş həkimi, dosent Nigar Mehdiyeva açıb.

Baş həkim, Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının kollektivi və Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının üzvləri adından konfrans iştirakçılarını salamlayıb. Bildirib ki, konfransın keçirilməsində əsas məqsədlərdən biri süd vəzi xərçəngi sahəsində qazanılmış qabaqcıl təcrübə və əldə edilmiş nailiyyətlər barədə iştirakçıları məlumatlandırmaqdır: “Bu baxımdan Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında elmi-tədqiqat, tibb və səhiyyə sahəsində qurulmuş əlaqələr böyük əhəmiyyət kəsb edir. Ölkəmiz müstəqilliyini elan etdikdən sonra, 1992-ci ildən etibarən hər iki ölkə arasında hər sahədə geniş əməkdaşlıq və əlaqələr qurulub. Bu əlaqələr getdikcə daha da dərinləşir. COVİD-19 pandemiyası dönəmində Çin Xalq Respublikası ölkəmizə həm mütəxəssis, həm də tibbi ləvazimatların təchiz edilməsi baxımından dəstəyini əsirgəmədi”.

N.Mehdiyeva tədbirin mövzusu ilə bağlı bildirib ki, qadınlarda süd vəzi xərçəngi xəstəliklər arasında ilk yerlərdən birini tutur. Çinin qabaqcıl texnologiyalarının tibb sahəsində tətbiqi, süd vəzi xərçəngi ilə aparılan birgə mübarizə əməkdaşlığımızın daha da möhkəmlənməsinə, yeniliklərin meydana çıxmasına səbəb ola bilər.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan konfrans iştirakçılarını universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayıb. Qeyd edib ki, hər kəs bura elmi bilikləri bölüşmək, minlərlə insanın həyatına təsir edən süd vəzi xərçəngi ilə mübarizə aparmaq üçün toplaşıb: “Bu sadəcə bir elmi konfrans deyil, həm də həyat uğrunda mübarizəyə sadiqliyimizi göstərir. Son illər süd vəzi xərçəngi ilə mübarizə istiqamətində olduqca mühüm nailiyyətlər əldə edilib.

Bu gün konfransa toplaşan təcrübəli mütəxəssislərin sayəsində yeni yanaşmaları öyrənmək, faydalı fikir mübadiləsi aparmaq üçün böyük fürsət var. Süd vəzi xərçənginin müalicəsində erkən diaqnostika, qabaqcıl təcrübə, psixohəssas dəstək - bu konfransın əsas müzakirə mövzularından olacaq. Əminəm ki, burada səslənəcək elmi çıxışlar, aparılan müzakirələr süd vəzi xərçəngi sahəsində yeni yanaşmaların formalaşmasına təkan verməklə yanaşı, ictimai sağlamlığın üçün də ciddi bir çağırış olacaq”.

Yeni Klinikanın direktoru Barat Yusubov isə çıxışında hər kəsin faydalana biləcəyi çox zəngin bir proqramın təşkil olunduğunu söyləyib. Bildirib ki, Çindən ölkəmizə təşrif gətirən həmkarlarımızın aparacağı fikir mübadiləsi iştirakçılar üçün çox faydalı olacaq: “Süd vəzi xərçəngi sahəsi bizim də diqqətimizdə olan bir sahədir. Klinikamızda bu xəstəliklə üzləşən hər kəs sığorta çərçivəsində müalicə ala bilir”.

Çinin Tianjin Tibb Universitetinin Xərçəng institutu və xəstəxanasının vitse-prezidenti Şen Jun (canlı), adıçəkilən tibb müəssisəsi və Tianjin Anti-Kanser Assosiasiyasının prezidenti Hao Jihuin video-görüntülü çıxışlarında rəhbərlik etdikləri qurumun süd vəzi xərçəngi sahəsində apardığı mübarizə, əldə olunmuş nailiyyətlər və keçirilən konfransın əhəmiyyətindən söhbət açıblar. İki ölkə arasında əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb.

Səhiyyə Nazirliyinin Ana və uşaq sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, TƏBİB-in Təlim və Tədqiqatlar Departamentinin Tibb Müəssisələrində Təlimlərin İdarəolunması Şöbəsinin əməkdaşı Şəbnəm Qurbanova da öz çıxışlarında Çinlə Azərbaycan arasında tibb sahəsində aparılan elmi əməkdaşlığın və o cümlədən təşkil olunmuş konfransın mütəxəssislər və xalqımız üçün faydalı olacağını qeyd ediblər.

Sonra Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının təsisçisi və prezidenti Həqiqət Vəliyeva çıxış edib. O, süd vəzi xərçəngi ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq, elmi araşdırmalar və fikir mübadiləsi aparılmasının vacibliyinə toxunub. Bildirib ki, konfransın əsas məqsədlərindən biri süd vəzi xərçənginin diaqnostikası, müalicəsi və qarşısının alınmasında son tədqiqatları, klinik təlimatları və texnoloji yenilikləri təqdim etmək, xəstənin həyat keyfiyyətini yaxşılaşdırmaq üçün multidisiplinar yanaşmaları təşviq etməkdir.

Konfrans çərçivəsində Tianjin Anti-Kanser Assosiasiyası ilə Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası arasında, Tianjin Tibb Universitetinin Xərçəng institutu və xəstəxanası ilə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası arasında memorandumlar imzalanıb.



Daha sonra konfrans öz işini plenar iclaslarla davam etdirib.

Tianjin Tibb Universitetinin Xərçəng institutu və xəstəxanasının Süd vəzi onkoplastik cərrahiyyə şöbəsinin direktoru Yin Jian “Süd vəzi rekonstruksiyasının strategiyaları və yeniliklər”, Şüa onkologiyası şöbəsinin baş mütəxəssis müavini Vanq Xin “Süd vəzi xərçəngində şüa-terapiya sahəsində elmi-tədqiqatların inkişafı”, Süd vəzi radioloji diaqnostika şöbəsinin direktoru Lu Hong “ACR-in süd vəzi görüntüləmə hesabatı və məlumatları sisteminin (BI-RADS) 6-cı nəşrinin ultrasəs bölməsindəki yeniliklərin şərhi”, həmin şöbənin ixtisaslaşmış həkimi Liang Rong “Süd vəzinin ultrasəs müayinəsi ilə aşkar olunan əsas patoloji dəyişikliklər və BI-RADS sisteminin ən yeni şərhi”, Tianjin Milli Onkoloji Klinik Tədqiqat Mərkəzinin İdarəetmə ofisinin direktor müavini Xu Tingting “Qadın süd vəzi xərçənginin qlobal xəstəlik yükü”, həkim-endokrinoloq Lalə Səlimxanova “Süd vəzinin xoş və bədxassəli xəstəliklərinin hormonal aspektləri”, Liv Bona Dea Hospitalının həkim-radioloqu Pərvanə Əsgərova “Süd vəzi radiologiyası: Ultrasəs müayinə, mamoqrafiya və Maqnit Rezonans Tomoqrafiya” mövzularında çıxış ediblər.

İştirakçıları maraqlandıran suallar mütəxəssislər tərəfindən ətraflı şəkildə cavablandırılıb.

# Türkiyəli tələbələr ATU-da klinik təcrübə proqramını başa vurub

**Universitetimiz beynəlxalq əməkdaşlıq çərçivəsində daha bir uğurlu layihəyə imza atıb. Türkiyənin Üsküdar Universitetinin Tibb fakültəsinin 4-cü kursunda təhsil alan dörd tələbə Psixiatriya kafedrasında və Tədris Cərrahiyyə Klinikasında iki aylıq klinik tədris-təcrübə proqramında iştirak ediblər.**



Proqram müddətində tələbələr klinik biliklərini dərinləşdirib, nəzəri hazırlıqlarını praktik fəaliyyətlə möhkəmləndirmək imkanı qazanıblar. Onlar professor-müəllim heyətinin rəhbərliyi ilə müxtəlif ixtisas sahələrində müasir tibbi yanaşmaları öyrənərək peşəkar bacarıqlarını inkişaf etdiriblər. Təcrübə çərçivəsində tələbələr xəstələrlə ünsiyyət qurmaq, diaqnostik proseslərdə iştirak etmək, klinik müşahidələr aparmaqla yanaşı, multidissiplinar komandada işləmək bacarığı da əldə ediblər. Həmçinin seminarlar və elmi müzakirələr onların analitik düşünmə və qərarvermə vərdişlərinin daha da möhkəmlənməsinə şərait yaradıb.

ATU-da həyata keçirilən bu tədris-təcrübə proqramı tələbələrin akademik və praktik hazırlığının gücləndirilməsinə, gələcək peşəkar fəaliyyətlərində beynəlxalq təcrübəyə əsaslanmalarına imkan verməklə yanaşı, Azərbaycan və Türkiyə universitetləri arasında elmi və tədris əlaqələrinin möhkəmləndirilməsinə də xidmət edir.

**Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Aynur Abduləliyeva Türkiyənin Yeditepe Universitetində keçirilən Erasmus+ Staff Week (əməkdaşlar həftəsi) proqramında iştirak edib.**

# Nümayəndəmiz Erasmus+ “əməkdaşlar həftəsi”nə qatılıb



Tədbir Erasmus+ proqramının beynəlxalq tərəfdaşlıq və şəbəkələşmə məqsədini gücləndirmək üçün təşkil olunub və İtaliya, İngiltərə, İspaniya, Portuqaliya, Belçika, Yunanıstan, Xorvatiya və digər ölkələrdən ali təhsil müəssisələrinin nümayəndələrini bir araya gətirib.

Proqram çərçivəsində iştirakçılar universitetlərin beynəlxalq ofislərinin idarə olunması, akademik və inzibati əməkdaşlıq mexanizmləri, mübadilə proqramlarının təşkili və idarə edilməsi, tələbə və müəllim mobilliyi kimi mövzularda geniş təcrübə və fikir mübadiləsi aparıblar. Sessiyalar zamanı həmçinin Erasmus+ layihələrinin yazılması, maliyyələşmə imkanları, beynəlmiləlləşmə strategiyaları və mədəni müxtəliflik mövzularında təlimlər keçirilib.

A.Abduləliyeva tədbirdə universitetimizi layiqincə təmsil edərək iştirakçılarla birbaşa görüşlər keçirib, bir sıra ali məktəblərlə gələcək əməkdaşlıq və akademik mübadilə imkanlarını müzakirə edib. Tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi məqsədilə ATU-nun beynəlxalq əməkdaşlıq strategiyası, tələbə və müəllim mübadiləsi proqramları barədə ətraflı məlumat verib.

Qeyd edək ki, ATU rəhbərliyi beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verir və Erasmus+ kimi proqramlarda iştirakı qlobal təhsil məkanında mövqelərin gücləndirilməsi, akademik mühitin beynəlmiləlləşdirilməsi və tələbələr üçün yeni təhsil imkanlarının yaradılması baxımından strateji əhəmiyyətli hesab edir.

# Tibb bacısı həkimin köməkçisi deyil

## Fəxriyyə Məmmədova: ATU-nun bu ixtisas üzrə məzunları iki üstünlük qazanır: doktorantura təhsili ala bilmək və müəllim kimi işləmək

**May ayında Ümumdünya Səhiyyə Təşkilatı dünya üzrə tibb bacısı çatışmazlığının olduğunu bəyan etdi. 2030-cu ilə qədər bu problemin daha da kəskinləşəcəyi proqnozlaşdırılır. Vaxtaşırı həkimlər də tibb bacısı çatışmazlığından gileylənirlər. Digər tərəfdən isə “saxta tibb kursları” problemi qalır. Mənşəyi məlum olmayan bu kurslarda 3-4 ay ərzində tibb bacısı “istehsal edilir”.**

Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin “Tibb bacısı işi” ixtisası üzrə koordinatoru Fəxriyyə Məmmədova mövzu ilə bağlı "Teleqraf" İnformasiya Agentliyinin suallarını cavablandırıb.

**- Əvvəlcə Tibb Universitetində “Tibb bacısı işi” ixtisasının yaradılmasından danışaq. Bu ixtisas nə vaxt açılıb və necə fəaliyyət göstərir?**

- Azərbaycanda əvvəllər tibb bacısı ixtisası üzrə tədris yalnız kollec və texnikumlarda həyata keçirilirdi. Dünya praktikasında isə tibb bacısı ixtisası ali təhsil tələb edir. Eyni zamanda, bu, Bolonya Bəyannaməsində də var. Buna uyğun olaraq tibb bacısı magistratura və doktorantura pilləsində təhsil üçün əvvəlcə bakalavr təhsili almalıdır. Bu sistem qonşu ölkə Türkiyədə artıq əlli ildir mövcuddur.

Dünya praktikası ilə tanış olduq, xarici ölkələrə ezamiyyətlər oldu və beləliklə, 2020-ci ildən başlayaraq ATU-da “Tibb bacısı işi” ixtisası yaradıldı. Hələ ki ayrıca kafedramız yoxdur. Bu ixtisas hazırda İctimai Səhiyyə fakültəsinin nəzdində fəaliyyət göstərir.

**- Sizdə bu ixtisas üzrə verilən təhsilin kollec və texnikumlardakından fərqi nədir?**

- Fərq ondan ibarətdir ki, bizdə təhsil müddəti 4 ildir. Bizim məzunlar ixtisası bitirəndə “bakalavr” adı alırlar və gələcəkdə magistratura və doktorantura üzrə təhsillərini davam etdirə bilərlər. Kollec və texnikumu bitirənlər isə bakalavr hesab edilmir. Üstəlik, bizdə bu yaxınlarda ixtisas üzrə magistr təhsili də yaradılıb və ilk məzunlarımız – ötən il ixtisası bitirənlər artıq magistr kimi təhsil alırlar. Magistr təhsilləri bitəndən sonra onlar müəllim kimi fəaliyyət göstərə bilərlər. Dünya təcrübəsi belədir ki, tibb bacısına tibb bacısı dərs deməlidir. Bizim məzunlarımız magistr təhsilini bitirəndən sonra iki üstünlük qazanır: doktorantura təhsili ala bilmək və müəllim kimi işləmək.

Amma biz bu ixtisası bitirən tibb bacıları və tibb qardaşlarının həkim olmalarını istəmirik. Biz məhz tibb bacısı, tibb qardaşı yetişdirmək niyyətindəyik. İstəyirik onlar başa düşsünlər ki, tibb bacısı (tibb qardaşı) heç də həkimlikdən aşağı peşə deyil.

**- Bu ixtisası bitirənlər hansı müəssisələrdə işləyə bilirlər?**

- Həm dövlət, həm də özəl tibb müəssisələrində. Üstünlüyümüz həm də ondan ibarətdir ki, bizim təhsil daha hərtərəflidir. Tədqiqat aparmaq bacarığı, marketinq menecmentiylə bağlı fənlər də tədris olunur ki, bu da məzunlara sonrakı karyerasında çox kömək olacaq. Artıq bəzi özəl klinikalardan bizə



xoş rəylər gəlir. Bizim məzunların daha müstəqil, sərbəst işləmək qabiliyyətinə malik olduğunu vurğulayırlar.

**- Bəs burada dərs deyənlər kimdir?**

- Təəssüf ki, hələ ölkədə dərs demək hüququna malik ali təhsilli tibb bacıları (qardaşları) yoxdur. Ona görə də tədrislə həkimlər, dosentlər məşğul olur. Bizim həm də yaxşı əlaqələrimiz var. Türkiyənin bir çox universitetlərindən mübadilə ilə alimlər, o cümlədən peşəkar tibb bacıları gəlir, dərs deyir, mühazirələr keçirlər. Bunu da qeyd edim ki, çalışırıq, gələcəkdə ikili diplom ideyası reallaşsın. Yəni bizim ixtisası bitirənlər diplomları ilə xaricdə də işləyə bilsinlər.

**- Fəxriyyə xanım, dərs materialları, vəsaitlərlə bağlı problem var?**

- Vəsaitlə bağlı bir problemimiz yoxdur. Artıq özümüz bir neçə dərs vəsaiti hazırlamışıq. Hazırda ailə təbabəti, cərrahiyyədən tibb bacısı üçün dərs vəsaitlərimiz var. Bu yaxınlarda pediatriyadan da dərs vəsaitimiz hazır olacaq. Türkiyədən də xeyli hədiyyə kitablar verilib. Bəzilərini isə özümüz almışıq. Bu vəsaitlərdən tərcümə materiallar da götürülür.

**- Məzunların gələcəkdə mübadilə proqramları ilə xarici ölkələrə göndərilməsi gözlənilirmi?**

- Artıq bir neçə tələbəmiz mübadilə çərçivəsində xarici universitetlərə gedib. İlk tələbəmiz Türkiyənin Qazi Universitetinə göndərildi, orada bir semestr təcrübə keçib, qayıtdı. Ondan sonrakı il isə 4 tələbəmiz – ikisi Qazi, ikisi Ege Universitetinə getdi və bir semestr təhsil alıb, qayıtdılar. Bunun qarşılığında Türkiyədən də bizə iki türk tələbə gəlib. Bizdə Qazaxıstanda magistratura oxuyub gələn tibb bacıları da var. Türkiyədə bu sistem əlli ildir var, Qazaxıstanda iyirmi ildir qurulub. Baxmayaraq ki bizdə sistem yeni qurulub, amma heç nə ilə onlardan geri qalmırıq. Bunu bizə gələn xarici tələbələr də deyir.




**- Maraqlıdır, bu ixtisası bitirənlər üçün işləyəcəyi sahələrlə bağlı hansısa bölgü varmı? Məsələn, ginekologiyada işləyəcək tibb bacıları ayrı, pediatriya, stomatologiya və cərrahiyyədə işləyəcəklər ayrı...**

- Bu ixtisası bakalavr üzrə bitirənlər istənilən sahədə işləyə bilər. Çünki bu ümumi tibb bacısı ixtisasıdır. Amma biz istəyimizi bildirmişik ki, magistratura pilləsində artıq ixtisaslaşma getsin. Onda artıq pediatriyada, cərrahiyyədə, təcili yardımda və digər sahələrdə işləmək üzrə ixtisaslaşacaqlar. Dünya praktikasında da belədir. Bir müddət öncə nazirliyin və işəgötürənlərin iştirakı ilə bu mövzuda böyük bir iclas da oldu.

**- Bir az da tibb bacısının işindən danışaq: o hansı işləri görə bilər?**

- Əvvəllər bizdə belə bir fikir vardı ki, tibb bacısı ancaq prosedur yerinə yetirir: iynə vurur və s. İndi isə paradiqmanı dəyişmişik. Tibb bacısı müstəqil fəaliyyət göstərməlidir. Onun işi sadəcə həkimin göstərişlərini yerinə yetirmək olmamalıdır. Xəstədə hansısa bir əlaməti görübsə, mütləq həkimə xəbər verməlidir. Həkimin təyinatını yerinə yetirəndə xəstədə hansısa qeyri-adi, diqqətini çəkən bir nüans olarsa, yenə də mütləq həkimlə məsləhətləşməlidir. Əvvəllər həkimlər “tibb bacıları bizim sağ əlimizdir”, “tibb bacıları bizim göz bəbəyimizdir” deyirdilər. Müasir tibb bacıları bu yanaşmanı doğru hesab etmir. Bu düşüncə tibb bacısının müstəqilliyini məhdudlaşdırır. Biz isə istəyirik ki, tibb bacıları sərbəst komanda üzvləri olsunlar. Biz artıq tibb bacısını həkimin köməkçisi hesab etmirik. Həkimlə tibb bacısı birlikdə işləyən komanda üzvləridir.

**- Saxta tibb kursları məsələsinə də toxunaq. Oranı bitirən tibb bacıları harada işləyirlər?**

- Dövlət müəssisələrində işəgötürmə daha ciddidir. Nəzarət var, sənədləşmə ciddidir. Amma bəzi özəl klinikalar təəssüf ki, saxta tibb kurslarını bitirmiş tibb bacılarını hansısa yollarla işə götürürlər. Təəssüf ki, bu faktdır. Bu cür mənbəyi, mənşəyi məlum olmayan, qısamüddətli kurslarda tibb bacısı kimi yetişmək mümkün deyil. Biz və kolleclər anatomiyadan klinik bacarıqlara qədər üç-dörd il hər şeyi tədris edirik, bu qısamüddətli kurslar bir neçə ay ərzində necə tibb bacısı yetişdirə bilər? Hətta orada davamiyyət necədir, təhsilverənlər kimlərdir – bunlar da məlum deyil. Fikrimcə, bu məsələlərə ciddi yanaşılmalıdır. İlk növbədə, işəgötürənlər buna xüsusi diqqət etməlidir. Bu birbaşa insan sağlamlığı, insan həyatı ilə oynamaqdır.

# ATU-nun stendi ziyarətçilərdə böyük maraq doğurub

**Dövlət İmtahan Mərkəzində ali təhsil müəssisələrinin sərgisi keçirilib. DİM-in aparat rəhbəri Vəfadar Misirov abituriyentlərin qarşısında duran ən vacib məsələ – ixtisas seçimi haqqında geniş məlumat verib, onların ali təhsil müəssisələrinin nümayəndələri ilə birbaşa görüşünün əhəmiyyətini vurğulayıb.**



Tədbirdə ölkəmizdə fəaliyyət göstərən 40-a yaxın dövlət və özəl ali təhsil müəssisəsi, həmçinin müxtəlif qurumların – Dövlət İmtahan Mərkəzi, Tələbə Təhsil Kredit Fondu, “Abituriyent” jurnalı redaksiyası, e-psixoloq.az psixoloji dəstək platforması və otk.az onlayn sınaq imtahanı portalının stendləri yer alıb. Azərbaycan Tibb Universitetinin stendi və burada təqdim olunan kitab və bukletlər ziyarətçilərin böyük marağına səbəb olub. Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva və həmin fakültənin “Tibb bacısı işi” ixtisası üzrə koordinatoru, dosent Fəxriyyə Məmmədova abituriyentlərə universitetimizdə tədris olunan ixtisaslar haqqında ətraflı məlumat veriblər.

Qeyd edək ki, sərginin keçirilməsində məqsəd ixtisas seçimindən öncə abituriyentləri ali təhsil müəssisələrinin təqdim etdiyi imkanlarla tanış etmək olub.

# Hərbi tibb fakültəsinin rezidentləri məlumatlandırılıb

**Hərbi tibb fakültəsinin tədris binasında rezidentlər üçün “Elmi məqalələrin yazılması və beynəlxalq konfranslarda tezislərin tərtibatı haqqında” mövzusunda seminar keçirilib.**





Tədbirin moderatoru, fakültənin Tədris şöbə rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov iştirakçılara Milli Müdafiə Universitetində (MMU) NATO-nun Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində cari ilin 3-4 dekabr tarixlərində keçilməsi planlaşdırılan beynəlxalq konfrans haqqında məlumat verib və elmi-praktik konfransa təqdim olunacaq tezislərin hazırlanması qaydalarından danışıb.

Bundan sonra Hərbi Elmi-Tədqiqat İnstitutunun Redaksiya şöbəsinin baş redaktoru polkovnik-leytenant Fərahim Eyvazov məruzə ilə çıxış edərək MMU-nun elmi nəşrləri və hərbi təbabət istiqamətində hazırlanan məqalələr, beynəlxalq və respublika səviyyəli konfranslarda qəbul edilən tezislər haqqında məlumatları rezidentlərin diqqətinə çatdırıb. Hərbi jurnallarda dərc edilən elmi məqalələrin növləri, elmi-praktik, elmi-nəzəri və icmal məqalələrin dərc olunma alqoritmi və nəşr prosesi ətraflı izah olunub.

Hərbi tibb fakültəsində təhsilini davam etdirən bütün rezidentlərə universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdıran Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov, akademik yazının həm rezidentlər, həm də ixtisaslı həkimlər üçün çox vacib olduğunu vurğulayıb. O, fakültədə savadlı və bacarıqlı mütəxəssislərin yetişməsi üçün dövlətimiz və Azərbaycan Tibb Universiteti tərəfindən hər cür şəraitin yaradıldığını deyib.

Seminarda tezis və məqalələrin struktur bölmələri izahlı təhlil edilib, həmçinin rezidentlərin sualları cavablandırılıb.

“Milli Təhlükəsizlik və Hərbi Elmlər və Hərbi Bilik” jurnalına qəbul edilən elmi-nəzəri və icmal məqalələrin tərtibinə dair tələblər haqqında geniş izahat verilib. Eyni zamanda, rezidentlər hərbi təbabət istiqamətində olan beynəlxalq jurnalların nəşr prosesində iştirak edən subyektlər (müəllif, redaksiya, rəyçi və nəşriyyat) haqqında məlumatlandırılıb.

Məqalələrdə UOT (Universal Onluq təsnifatı) indeksi və DOİ (Digital Object İdentifier) izahı haqqında ətraflı müzakirə aparılıb. Elmi-praktik, elmi-nəzəri və icmal məqalələrdə antiplagiat sistemi üzrə qaydallar haqqında da məlumat verilib və plagiatın bir neçə xüsusiyyəti, növləri izah edilib.

Seminarda Hərbi Tibb Fakültəsinin tədris şöbə rəisi, tibb xidməti polkovniki Vüsal Rüstəmzadə və Hərbi tibb fakültəsinin rezidentura bölməsinin zabiti, tibb xidməti mayoru Elxan Məmmədov da iştirak ediblər.

**27 iyul – 1 avqust tarixlərində MediaTürk TV-nin təşəbbüsü, TİKA Azərbaycanın koordinatorluğu, Türkiyə Media İş Sendikası və Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Milli Mətbuatının 150 illiyi münasibətilə bir qrup qazi jurnalistin Türkiyəyə səfəri təşkil olunub.**

# Əməkdaşımız Türkiyənin nüfuzlu media qurumlarında olub




Azərbaycan Tibb Universitetinin “Təbib” qəzetinin baş redaktoru, Vətən müharibəsi qazisi Məğrur Əliyevin də daxil olduğu Azərbaycan nümayəndə heyəti İstanbulda bir sıra görüşlər keçirib. Jurnalistlər əvvəlcə Azərbaycan Mədəniyyət Evinin (AME) qonağı olublar. Görüşdən məmnunluğunu ifadə edən AME-nin rəhbəri Hikmət Elp ziyarətin əhəmiyyətini vurğulayıb, azərbaycanlı jurnalistlərin səfərinin iki ölkə arasındakı qardaşlıq münasibətlərinə növbəti töhfə olduğunu bildirib.

Növbəti görüş dünyaca məşhur Anadolu Agentliyində baş tutub. Qazilərimizi xoş sözlərlə qarşılayan agentliyin Strateji kommunikasiyalar və beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi Eren Erciyas qonaqlara media qurumunun tarixi, bu günkü fəaliyyəti, gələcək prioritetləri haqqında geniş məlumat verib. Onun səsləndirdiyi rəqəmlər, o cümlədən müasir texnologiyalardan istifadə imkanları barədə dedikləri iştirakçıların böyük marağına səbəb olub.

"CNN Türk"də qonaqları qurumun Xəbərlər Departamentinin müdiri İdris Arıkan və Vətən müharibəsi dövründə hadisələrin mərkəzindən hazırladığı reportajlarla Azərbaycanda böyük populyarlıq qazanan, xalqımızın sevimlisinə çevrilən telejurnalist Fulya Öztürk qarşılayıb. Azərbaycanlı həmkarlarını öz iş yerində görməkdən məmnunluğunu bildirən F.Öztürk bu yaxınlarda növbəti dəfə Azərbaycanda olduğunu söyləyib, ölkəmizi öz vətəni kimi sevdiyini bir daha dilə gətirib. İ.Arıkan da öz növbəsində iki ölkə media orqanlarının əməkdaşlığı, Türkiyə-Azərbaycan qardaşlığı fonunda media nümayəndələrinin üzərinə düşən vəzifələrdən danışıb.

Məşhur Demirören Xəbər Agentliyinə (DHA) ziyarət zamanı qonaqları səmimiyyətlə qarşılayan direktor Cemal Coşkun DHA-nın gördüyü işlər, prioritetləri, sosial mediadakı fəaliyyəti haqda geniş məlumat verib. Bu yaxınlarda Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçısı olduğunu diqqətə çatdıran C.Coşkun, Vətən müharibəsi dövründə Türkiyə və Azərbaycan mətbuatının fəaliyyətini yüksək qiymətləndirib.

"Türkiye Gazeteciler Cemiyyeti" və "Küresel Gazeteciler Konseyi"ndə keçirilən görüşlər də səmərəli olub, aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində jurnalistlər Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulluğunda qəbul ediliblər. Baş konsul Nərminə Mustafayeva 44 günlük Vətən müharibəsi zamanı xalqımızın birliyindən və əldə olunan tarixi qələbənin əhəmiyyətindən danışıb, müharibədə döyüşçü kimi iştirak etmiş media nümayəndələrinə minnətdarlığını çatdıraraq, şəhidlərimizə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Qazi jurnalistlər həm döyüşlərdəki, həm də informasiya cəbhəsindəki fəaliyyətlərindən söz açaraq, bu qələbənin bir parçası olmalarından qürur hissi keçirdiklərini bildiriblər.

Sonuncu görüş Türkiyə Qazilər və Şəhid Ailələri Vəqfinin İstanbul şöbəsində keçirilib. Qonaqları Vəqfin İdarə Heyətinin üzvü, İstanbul şöbəsinin sədri, qazi Ferhat Koçak qarşılayıb. İki ölkə arasında qardaşlıq münasibətlərinin vurğulandığı, şəhidlərin xatirəsinin ehtiramla yad edildiyi görüşdə “Bir millət, iki dövlət” ruhu xüsusi hiss olunub.



# Rezidentlər üçün donuz modelində kurs təşkil edilib

**Ölkəmizdə ilk dəfə olaraq rezidentlərimiz üçün donuz modelində laparoskopik uroloji və ginekoloji kurs təşkil edilib. Azərbaycan Tibb Universiteti və Azərbaycan Endouroloji Cəmiyyəti tərəfindən uğurla keçirilən kursda urologiya və ginekologiya ixtisası üzrə təhsil alan 10-a yaxın rezident iştirak edib. Kursa professor Rauf Nağıyev və həkim Raxşəndə Əliyeva rəhbərlik ediblər.**



Qeyd edək ki, donuz modeli üzərində laparoskopik kurslar hazırda dünyanın bir çox qabaqcıl tibbi təlim mərkəzlərində - ABŞ-nin Mayo Clinic, Cleveland Clinic, Harvard Medical School kimi iri universitet xəstəxanalarında, Almaniya, Fransada tətbiq edilir. Həmçinin İspaniya, İtaliya, Avstriya və İsveçdə, Türkiyənin tibbi universitetləri və xüsusi simulyasiya mərkəzlərində donuz modeli ilə uroloji və ginekoloji kurslar tədris olunur. Bu üsul Yaponiya, Cənubi Koreya, Çin və Hindistanda həm dövlət universitetləri, həm də özəl tibbi tədris mərkəzlərinin proqramına daxildir.

Təlim zamanı laborator şəraitdə canlı və ya kadavrik donuz üzərində laparoskopik (minimal invaziv) əməliyyatların öyrədilməsi həyata keçirilib. Bu metod həm cərrahların ilkin bacarıqlar qazanması, həm də təcrübəli həkimlərin yeni texnologiya və üsullara adaptasiyası üçün geniş istifadə olunur.

Donuz anatomiyasının insanın genito-urinar sistemi və qarın boşluğu anatomiyasına müəyyən oxşarlıqları olduğu üçün bu təlim daha real və faydalıdır. Həmçinin gənc cərrahlar və rezidentlər ilk təcrübələrini birbaşa insan üzərində deyil, heyvan modelində sınayaraq bacarıq qazanırlar. Təlim zamanı əl bacarıqları inkişaf etdirilir, endoskopik alətlərdən istifadə, kameranın idarəsi, disseksiya, tikiş qoyma və qanaxmanın idarəsi kimi incə texnikalar öyrədilir. Yeni texnologiyalara (robotik cərrahiyyə, 3D laparoskopiya) adaptasiya baxımından da əhəmiyyətlidir.

Dünyanın müxtəlif ölkələrində bu kurslarda iştirak ödənişli olsa da, Bakıda rezidentlər üçün pulsuz təşkil edilib. Gələcəkdə kursların daha çox iştirakçı sayı ilə ATU rezidentləri üçün yenidən təşkil olunacağı planlaşdırılır.

# Tibdə nanotexnologiyanın artan rolu

## Nanotəbabət həkimlərin qarşısında yeni üfüqlər açır



**Şahmərdan ƏMİROV**
Tibbi və bioloji fizika kafedrasının dosenti, fizika elmləri doktoru

**Nanotexnologiya - elm və mühəndislik sahələrində, nanoölçülü materialların, cihazların və sistemlərin dizaynı, xarakteristikası, istehsalı və tətbiqi zamanı istifadə edilən bir termindir. Nanotexnologiya anlayışı ilk dəfə 1959-cu ildə fizik Riçard Feynman atom və molekulyar səviyyədə əşyaların yaradılması haqqında təqdimatı təqdim edərkən ortaya çıxdı. Nanotexnologiya XXI əsrin ən perspektivli texnologiyası kimi qəbul edilir və alimlər onu tibbi tədqiqatlarda yeni bir texnika kimi araşdırırlar.**

Nanotəbabət - nanotexnologiyanın tibbi praktikada tətbiqi deməkdir və bu texnologiyanın ən mühüm tətbiq sahələrindən biri tibbi praktikadır. Son yüz ildə insan sağlamlığının qorunmasında böyük nailiyyətlər qazanmış tibb elminin daha da təkmilləşməsi üçün nanotexnologiyaların bu sahəyə tətbiqi vacib amillərdən biridir. Müasir nanotexnologiya tibbin bir sıra həll olunmayan problemlərini həll etmək iqtidarındadır. Xəstəliklərin səbəblərinin molekulyar səviyyədə müəyyənləşdirilməsi onların müalicəsində mühüm nəticələrin alınmasını təmin edir. Nanotexnologiyanın tətbiqi xüsusilə xərçəng kimi dəhşətli xəstəliyin ilkin diaqnozu və müalicəsində daha ümidvericidir. Nanotəbabət xəstəliklərin dəqiq və sürətli diaqnostikasını, müalicəsini və profilaktikasını daha yüksək səviyyəyə qaldıracaq, travmatik zədələnmələrin tamamilə aradan qaldırılmasına imkan yaradacaq, ağrıların azaldılmasına zəmanət verəcək.
Nanomateriallar səhiyyə sənayesində diaqnoz, terapiya və xəstəliklərin qarşısının alınması üçün geniş istifadə olunmaqdadır. Daha keyfiyyətli və zərərsiz dərman vasitələrinin, toxumalara mərkəzləşmiş fəaliyyətlərin və fərdiləşdirilmiş nanodərmanların tətbiqi nanohissəciklər tərəfindən idarə olunur. Bu texnologiya, məsələn, 2019-cu il koronavirus pandemiyası zamanı səth və fərdi qoruyucu vasitələrin dezinfeksiya edilməsi üçün istifadə olunmuşdur. Nanohissəciklər dərmanları tələb olunan yerə dəqiq daşıya, onların effektivliyini əhəmiyyətli dərəcədə yaxşılaşdıra və bədəndəki digər toxumalara toksikliyi məhdudlaşdıra bilər. Müalicəsi çətin olan xəstəliklərdə beynə dərman çatdırılması üçün nanohissəciklər qan-beyin baryerini dəf etmək məqsədilə də hazırlana bilər.
Nanotexnologiyanın tibbdə tətbiqi aşağıdakı istiqamətləri nəzərdə tutur: 1. Tibbi diaqnostika, molekulyar diaqnostika, nanohissəciklərlə kontrast edilmiş xəyalların alınması, nanobiosensorlar. 2.Farmakoloji nanotexnologiyaya əsaslanan dərman istehsalı, dərmanların hədəfə çatdırılması, nanoimplantasiya edilmiş nanostend və nanoörtüklərlə dərmanları ötürülməsi. 3. Bərpa cərrahlığı - nanotexnoloji üsullarla toxuma mühəndisliyi, immun davamlı süni toxuma və orqanların implantasiyası. 4. Nanorobotların yaradılması, qandamar sisteminə yeridilmiş nanoqurğularla damarların bərpası. Analizetmə qabiliyyətinə malik nanorobotlar və hüceyrədaxili nanorobotlar. 5. Nanocərrahiyə. Bu istiqamət nanolazer cərrahiyyəsini və katetrlərə daxil edilmiş nanolansetlər və nanodağıdıcıları nəzərdə tutur.
Əsas istiqamətlərdən biri də cərrahiyədə nanoölçülü qurğulardan istifadə etməkdir. Bu qurğular molekul və hüceyrə səviyyəsində olan zədələnmələri bərpa etmək funksiyalarına malikdir. Dərmanların hədəfə çatdırılması - nanotexnologiyalar həm də sinir sisteminə, böyrəklərə, baş beynə, ürəyə, ciyərlərə və sümüklərə lazım olan material və dərmanların daşınmasında əvəzedilməz imkanlara malikdir. İndi biz bir çox xəstəlikləri nanotexnologiyaya əsaslanan yeni diaqnostik üsullarla asanlıqla aşkar edə bilirik. Nanobiotexnoloji metodlar və qurğularla müasir müalicə üsullarını təkmilləşdirmək, onları yüksək səviyyəyə qaldırmaq mümkündür. Dərman daşıyıcıları rolunu oynayan nanopolimerlərdən istifadə edərək yüksək və effektiv nəticələrə nail olmaq olar. Təbiət çoxlu sayda bioloji polimerlər yaradıb. Bu polimerlərdən istifadə edərək orqanizmə dərmanların yeridilməsi üsullarını yeni səviyyəyə qaldırmaq olar. İstənilən xəstəliyin müalicəsinin nəticəsi tələb olunan dərmanın xəstəliyin mənbəyinə necə və nə zaman çatdırılmasından çox asılıdır. Klassik mexaniki üsullarla dərmanın göndərilməsi sağlam hüceyrələrin zədələnməsi və dərmanın effektivliyinin azalması ilə müşayiət edilir. Dərmanlar həm də suda həllolma tələbini ödəməlidir. Kimyəvi üsulla müalicədə isə dərmanların yüksək dozasından istifadə olunur ki, bu da digər orqanlara mənfi təsirin mənbəyi ola bilər. Belə çatışmazlıqların aradan qaldırılması üçün nanotexnologiyanın imkanlarından geniş istifadə edilir.



Nanohissəcik və nanomateriallarin molekulyar səviyyədə diaqnostika üçün istifadə edilməsi isə nanodiaqnostika adlanır. Ölçülər çox kiçik olduğundan, bu diaqnostik qurğuları nanoçiplər və ya nanogücləndiricilər adlandırırlar. Bir sıra nanohissəciklərdən diaqnostikada müvəffəqiyyətlə istifadə olunur. Misal üçün, DNT-nin bir hissəsinin qızıl nanohissəciyi ilə birləşdirilməsindən diametri 13 nm (nanometr) olan nanohissəcik alına bilir. Bu nanohissəciklə məlum olmayan DNT-də nukleotid ardıcıllığını müəyyən etmək olar. DNT-də nukleotid ardıcıllığını kvant nöqtələri nanohissəcikləri ilə daha müvəffəqiyyətlə müəyyən etmək olar. Kvant nöqtələri nanohissəcikləri ilə xərçəngin ilkin diaqnozunu müəyyən etmək daha perspektivlidir.
Tarixən cərrahlıq makroalətlərlə həyata keçirilmiş və insan əli burada mühüm rol oynamışdır. Elm və texnikanın inkişafı daha incə cərrahi ləvazimatların yaradılmasına imkan versə də, makroalətlərdən yenə də istifadə olunur. Bir sıra sahələrdə, məsələn, neyrologiya, oftalmologiya, otolorinqologiyada alətlər xeyli miniatürləşdirilmişdir. Lakin hüceyrə daxilində, damardaxili və kapilyarlarda, toxumalararası mühitdə cərrahi əməliyyatları aparmaq üçün nanoölçülü cərrahi qurğuların yaradılması tibdə inqilabi bir dönüş olacaq. Bu qurğular əməliyyat zamanı toxumaların zədələnməsini minimuma endirmək üçün yaradılır. Bunlara optik-lif üsulu ilə müşahidə etməklə laparoskopik cərrahiyəni, katetrlə damarlarda cərrahiyəni, mikroskopla mikrocərrahiyyəni aid etmək olar.
Nanotexnologiya hətta hüceyrənin təşkil olunduğu molekulları təklikdə aşkar edən üsulların təşəkkülünə imkan yaradır. Hüceyrələrin orqanlarda hərəkətinin izlənilməsi üçün ən yaxşı vasitə dəmir oksidinin nanohissəcikləridir. Ölçüləri təqribən 200 nm olan endotelial hüceyrələrə birləşdirilmiş maqnit nanohissəciklərin köməyi ilə onların hərəkətini maqnit rezonans üsulu ilə müəyyən etmək mümkündür.
Nanobiotexnologiyanın yaratdığı robotlar cərrahi əməliyyatların miniatürləşdirilməsində mühüm rol oynayacaq. Nanorobotlar katetrin ucunda yerləşdirilir və damarlar vasitəsi ilə əməliyyat yerinə çatdırılır. Proqramlaşdırıldıqdan sonra nanorobot sərbəst əməliyyat apara bilir, həkim isə yalnız onun işini müşahidə edir. İndi endoskopiya ilə nazik bağırsaqlarda əməliyyatları nanorobotlar aparmağa qadirdir. Nanorobotlar bağırsağa kapsula halında yeməklə yeridilir. Burada kapsula açılır və nanorobot bağırsağın divarlarında hərəkət edərək əməliyyat aparır, bu zaman bağırsağın divarlarında yaranmış şişlər, yad cisimlər götürülür, tullantılar təmizlənir, toxuma bərpa olunur. Onlar xəstəliklərin diaqnozunu və müalicəsini eyni zamanda həyata keçirməyə imkan verəcək.
Nanorobotlardan istifadənin əsas problemi onların əməliyyatdan sonra taleyinin necə olacağıdır. Onlar ya orqanizmdə parçalanaraq sorulmalı, ya da mexaniki olaraq kənarlaşdırılmalıdır. Heç şübhəsiz, nanotexnologiyanın imkanları bu problemin də həllində ümidvericidir.




**Ümumdünya Hipertoniya ilə Mübarizə Liqası və Beynəlxalq Hipertoniya Cəmiyyətinin təşəbbüsü ilə 2005-ci ildən etibarən Ümumdünya Arterial Hipertoniya ilə Mübarizə Günü qeyd olunur.**

# Arterial hipertoniya - illərlə əlamətsiz irəliləyən "səssiz qatil"

Arterial hipertoniya arterial təzyiqin 140/90 millimetr civə sütunundan yuxarı qalxması halıdır. Birinci dərəcəli arterial hipertoniya ayrıca bir xəstəlik sayılır. Onun əsas və aparıcı əlaməti arterial təzyiqin yüksəlməsidir. İkinci dərəcəli arterial hipertoniya simptomatik olur və bu zaman təzyiqin yüksəlməsi başqa xəstəliklər nəticəsində əmələ gəlir.

Bir çox ölkələrdə 60 yaşından yuxarı olan əhalinin 50 faizdən çoxu yüksək arterial təzyiqə malikdir.

Ümumdünya Arterial Hipertoniya ilə Mübarizə Gününün əsas məqsədi insanlarda yüksək qan təzyiqi ilə bağlı maarifləndirməni artırmaq, onun fəsadları və qarşısının alınması yolları haqqında cəmiyyəti məlumatlandırmaqdır. Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə hər il Azərbaycanda da geniş maarifləndirmə aksiyaları həyata keçirilir.

Arterial hipertoniya, yəni yüksək qan təzyiqi dünya üzrə ən çox yayılmış xroniki qeyri-infeksion xəstəliklərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, hər üç nəfərdən biri bu problemdən əziyyət çəksə də, onların əksəriyyəti vəziyyətdən xəbərsizdir və vaxtında tədbir görmürlər.

Mütəxəssislər arterial hipertoniyanı uzun illər heç bir əlamət göstərmədən irəlilədiyi üçün "səssiz qatil" adlandırırlar. Bu xəstəlik vaxtında aşkarlanmadıqda və nəzarət olunmadıqda insult, infarkt, böyrək çatışmazlığı və görmə pozğunluğu kimi ağır fəsadlara səbəb ola bilər. Ən təhlükəli cəhəti isə odur ki, pasiyentlər illərlə özündə heç bir narahatlıq hiss etmədən bu riski daşıyırlar.

Arterial təzyiq gündə iki dəfə - səhər və axşam fiziki iş, qida, çay və ya qəhvə qəbulundan ən azı 30 dəqiqə sonra ölçülür. Bu məqsədlə stulda rahat vəziyyətdə oturmaq, əli stolun üstündə ürəyin səviyyəsində tutmaq, təzyiqölçən aparatın manjetini dirsəkdən 2 santimetr yuxarıya sarıyıb onu hava ilə tam doldurandan sonra ölçmək lazımdır. Arterial təzyiqi 1-2 dəqiqə fasilə ilə iki-üç dəfə ölçmək məsləhətdir. Bir əldə aparılan bu cür ölçmədən sonra arterial təzyiqin dəqiq səviyyəsini müəyyən etmək mümkündür.

Duzlu, yağlı qidalar və alkoqoldan istifadə edən, xroniki stres yaşayan, siqaret çəkən, fiziki aktivliyi az olanlarda qan təzyiqi tez-tez yüksəlir. Yüksək qan təzyiqi olanlar normal qan təzyiqi olanlara nisbətən qida ilə üç dəfə çox natrium-xlorid istehlak edirlər. Çəkilən siqaret qan təzyiqinin 10-30 millimetr civə sütunu artmasına səbəb ola bilər. Bədən çəkisinin artması ilə təzyiq artır. Artıq çəki təzyiqi 1-3 millimetr civə sütunu artırır.

**Alpinizm idman növü ilə məşğul olanlar yüksəklikləri, zirvələri fəth etməyi sevirlər. Bir zirvəni fəth edirsənsə, digərləri üçün motivasiya yaranır. Belə idmançılardan biri də Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinin 5-ci kurs tələbəsi Fidan Hacıyevadır. Bu, Fidanın ATU-da ikinci təhsilidir. Bundan öncə Stomatologiya fakültəsini bitirib. Müxtəlif idman növləri ilə məşğul olsa da, onun üçün alpinizmin yeri tamam başqadır. Müxtəlif illərdə bir neçə dəfə Zaqatala və Beşbarmaqda qayaya dırmanma yarışlarında iştirak edib. Ötən il martın 2-də Gənclər və İdman Nazirliyi və Alpinizm Federasiyasının təşkil etdiyi universitetlərarası idman dırmanması yarışında tələbələrimizlə birlikdə ATU-nu layiqincə təmsil edib, yarışın qalibi olublar.**



# Zirvələri fəth edən tələbəmiz

## Çətinliklər, xəsarətlər, hətta ölüm təhlükəsi də Fidan Hacıyevanı öz yolundan döndərə bilməyib



Tufandağ zirvəsi

### "Şaxtalı havada böcəklər üstümə hücum çəkdi"

Fidan hansı zirvələri fəth edirsə-etsin, səfərləri zamanı həyati təhlükəli situasiyalarla, maraqlı macəralarla üzləşib: "Dağ macəralarım 2021-ci ilin mayında başladı. İlk yürüşüm 3740 metr hündürlükdə yerləşən Cümhuriyyət zirvəsi oldu. Bakıdan Xınalığa getdik. Oradan Şahyaylaq adlanan əraziyə avtomobillərlə yola düşdük. Elə təzəcə çadırlarımızı qurmuşduq ki, qəfildən hər tərəfi buludlar örtdü və dolu yağmağa başladı. Doluya görə hər kəs öz çadırına çəkildi. Mən də öz çadırıma getdim.

Biz çadırın içində yatmaq üçün əvvəl mat sərir, sonra yuxu tulumuna girib yatırıq. Normalda yuxu tulumunda ən nazik geyimlə uzanıb yatmaq lazımdır. Elə də etdim. Qəflətən möhkəm üşüdüyümü hiss etdim, yenidən bütün geyimlərimi geyinməyə məcbur oldum. Amma yenə də donurdum. Artıq şiddətli şəkildə titrəyirdim, dişlərim bir-birinə dəyirdi və heç cür isinə bilmirdim.

Bir az keçdi, vəziyyətim stabilləşdi. Özümü çox rahat hiss etməyə başladım. O günə qədər belə bir şey olmamışdı. Gecə saat 3-də durduq, hazırlaşıb yola düşdük. Yolboyu dəfələrlə geri qayıtmağı düşündüm. Bu mənim ilk zirvə yürüşüm idi və çox çətin gedirdim. Zirvəyə 5-6 m qalmış halım dəyişdi. Başgicəllənməm oldu, gözlərim qaraldı. Nəhayət, çox çətinliklə zirvəyə çatdım və oturdum.

Oturduğum yerdə birdən çoxlu böcəklər görməyə başladım. Hamısı üstümə tərəf uçur, sanki ağzıma və burnuma doluşmaq istəyirdilər. Mən də onları qovmağa çalışırdım.

Bələdçi bu vəziyyətimi görüb soruşdu:

- Fidan, sən nəyi qovursan üzündən?

Mən ona ağız və burnuma girməsnlər deyə, böcəkləri qovduğumu dedim. O tez məni oradan kənarlaşdırdı, rahat bir yerdə uzandırıb, tapşırdı ki, bir az gözlərimi yumum və dincəlim. Elə də etdim, dincələndən sonra bir az su için özümə gəldim. Yolumuza davam etdik, ən hündür yerə çatdıq, orada şəkil çəkdirib qayıdanda bələdçidən soruşdum ki, o soyuq və küləkli havada o qədər böcək nə gəzirdi?



Klimancaro dağı (Uhuru zirvəsi)

Gülərək, mənə orada heç nə olmadığını bildirdi. "Bunu ancaq sən gördün. İlk dəfədir bu hündürlükdəsən, bu şəraitə öyrəşməmisən. Ona görə belə vəziyyətlə üzləşmək normal haldır" - dedi.

Qayıdanda daşlı yerdə sürüşdüm və beli üstdə yıxıldım. Onurğam çox sərt şəkildə daşın iti kənarına dəydi. O ankı ağrı dəhşətli idi. Hətta ciddi zədə aldığımı düşündüm, ayağımı yerə basmaqda çətinlik çəkirdim. Həkimə getdim, ciddi bir şey olmadığını dedi.

Mən dağda yıxıldığım an öz-özümə "bir də dağlara gəlməyəcəm, buralar mənlik deyil", demişdim. Amma Bakıya yenicə çatmışdım ki, beynimdə Bazardüzünün planlamasını edirdim".

### "Yolda həm ayağım zədələndi, həm də çaya düşdüm"

Fidanın digər səyahətləri də maraqlı olub. 2021-ci ilin iyulunda ölkəmizin ən yüksək, 4466 metr hündürlüyündə Bazardüzü zirvəsini fəth etmək üçün yola düşüb:



Cümhuriyyət zirvəsi

- Yolu digər zirvələrimizlə müqayisədə çox rahat və təhlükəsiz olsa da, uzun məsafə səbəbilə çox yorucu idi. Gecəni normal yatıb, normal yol qət edib zirvəyə çatmışdım. Düşərgəyə geri dönəndə də hər şey əla idi. Elə uzaqdan çadırları görüb bu səfər salamat çatmağımın sevincini yaşamaq istəyirdim ki, qəflətən sürüşdüm, böyük bir qayaya dəyərək dayandım. Ayağımın qayaya dəyməsi ilə baş barmağımın dırnağının yerindən çıxması bir oldu. Ayağı zədəli, birtəhər yoluma davam etdim. Yolda sürüşüb çaya da düşdüm. Ayaqqabımın içi su oldu. Artıq ayağım həm yaş, həm də zədəli idi. Düz evə qədər o yaş ayaqqabı ilə gəldim. Bələdçi nə qədər israr etsə də, ağrının şiddətindən ayaqqabımı çıxarmadım.

### "Şahdağa səyahət zamanı ölümlə üz-üzə gəldim"

Fidan 2022-ci ildə 3066 metr yüksəklikdə yerləşən Kəpəzə səyahət edib. Deyir ki, bu səfərdən sağ-salamat qayıdıb: "Elə həmin il 4243 metr hündürlüyündə Şahdağ zirvəsini fəth etmək qərarı verdim. Düşərgədə ilk gecə nəfəs darlığı, başgicəllənmə və ürəyimin bulanması səbəbilə zirvəyə yola düşə bilmədim, bütün günü çadırda qaldım.

Bura növbəti dəfə 2023-cü ildə gəldim.Yarımçıq qalan səfərimi tamamlamaq üçün. Bu dəfə özümü çox yaxşı hiss edirdim. Gecə yola düşdük. Şahdağın zirvə yolu digər dağlardan fərqlənirdi. Maraqlı, eyni zamanda təhlükəli marşrutu var.

Səhər saatlarında zirvəni uğurla tamamladıq. Çox şiddətli külək əsməyə başladı deyə, tez qayıtmalı olduq. Hətta sürətim də həmişəkindən çox idi. Mən və başqa alpinist dostlarım yaxşı yeridiyimiz üçün qrupdan irəli keçdik. Bələdçi bizə gəldiyimiz yolun üzərində qayaların qopduğu divar tərəfdən tez keçməyi, orada gözləməməyi tapşırdı. Biz razılaşdıq və getdik. Amma yolda qəflətən gözüm qaraldı, halsızlaşdım. Alpinist yoldaşıma dayanacağımı dedim. O burada dayanmağın təhlükəli olduğunu bildirdi. Amma mən artıq yeriyə bilmirdim. Həmin qopmuş altıboş qayalardan birinin üstündə oturdum. Alpinist dostum tez mənə kömək etdi, şokoladla çay verib gözlədi. Özümə gələn kimi, yola davam etdik. Həmin divarı təzəcə keçib təhlükəsiz hissəyə addım atmışdıq ki, dəhşətli bir səs eşitdik. Çevrilib arxaya baxanda, həmin yolda divardan böyük qayaların ard-arda düşdüyünü gördük. Çox qorxduq. Çünki bizi təhlükədən saniyələr ayırmışdı. Bir az geciksəydik, faciəli şəkildə həlak ola bilərdik..."

### Fidan Tufandağda özünü necə aldadıb?

Həmsöhbətimizin sözlərinə görə, 4191 metr hündürlüyündə Tufandağ və 4062 metr hündürlüyündə Çingiz Mustafayev zirvələri ölkəmizin ən çətin və təhlükəli zirvə yollarından hesab olunur:

- Tufandağ zirvəsinə gedən yolda keçilməli olan daş divarlar var idi. Hansı ki, orada daşlar sürüşüb başımıza düşə bilərdi. Həm də divarın dibindən keçən yol çox ensiz olduğu üçün ani ehtiyatsızlıqdan uçuruma düşə bilərdik. Mahmuddərə adlı yer buzlu və sürüşkən olduğu üçün ciddi çətinlik yaradırdı. Buzlağı keçmək üçün kramponlardan istifadə etməli olduq.

Uğurla Tufandağ zirvəsinə çatdıq. İndi isə çox vaxt itirmədən Çingiz Mustafayev zirvəsinə yola düşməli idik. Çünki oranın yolu daha çətin və daha təhlükəli idi. Zirvəyə qalxıb tez geri qayıtmalı idik ki, hava qaralmamış düşərgəyə çata bilək. Ona görə maksimum cəld yeriməli olduq.

Gəlib iki zirvə arasındakı yerə çatdıq. Artıq kəndirləri geyinib, düyünləri bağlayıb yola bu şəkildə davam etməli idik. Geyindik, hazırlaşdıq və yola düşdük. Elə 2-3 m yerimişdik ki, sağıma və soluma baxdım. Hər iki tərəfimdə uçurum gördüm. Məni şiddətli qorxu bürüdü. Ayaqlarım əsir, başım gicəllənir, ürəyim tez-tez döyünürdü. Dayandığım yerdən geri qayıtmaq isə mümkün deyildi. Çünki iki ayağımı yan-yana qoya biləcəyim yer yox idi.



Bazaryurd zirvəsi

Yola necə davam edəcəyimi düşündüm və elə o an xəyali bir fikrə fokuslandım. Özümü inandırdım ki, sağım və solum divardır və mən uzun bir dəhlizdə yeriyirəm, heç bir təhlükə yoxdur. Bu fikrə necə inanmışdımsa, zirvəyə demək olar ki, qaça-qaça çatdım...

### "Ölüm və təhlükə bizimlə birgə irəliləyirdi..."

4150 metr hündürlükdə yerləşən Bazaryurd və 4116 metr hündürlükdəki Yarudağ zirvələrinə səyahət də asan başa gəlməyib: "Hətta Yarudağa səfərimiz zamanı yolda barmaqlarımı şaxta vurdu və uzun müddət bunun əziyyətini çəkdim.

5642 metr hündürlükdə Elbrus zirvəsinə dırmanmaq isə ölkədən kənarda ilk yürüşüm idi. Yolda iki dəfə başgicəllənməsi yaşadım. Bələdçinin dəstəyi ilə tez toparlanıb yola davam edə bildim. Başqa ciddi narahatlığım olmadı. Həmin günlərdə yolumuzdakı ən böyük təhlükə külək idi. Belə ki, biz zirvəyə qədər ancaq iplərə bağlı şəkildə yeriməli olduq. Bir ipdən digərinə keçdikdə, əgər karabini gec bağlasaydıq, küləyin təsiri ilə aşağı yuvarlana bilərdik. Burada təhlükə və ölüm əslində hər yerdə bizimlə birlikdə irəliləyirdi.

3726 metr hündürlükdə yerləşən Qızılqaya zirvəsini fəth etmək, Elbrusdan sonra mənə çətin gəlmədi. Amma yenə də -20 C dərəcədə yolumuza davam edib, məqsədimizə çatdıq".

### "Klimancaro səfərində 4 mövsüm yaşadıq"

Afrikanın ən hündür nöqtəsi, 5895 metr yüksəklikdəki Klimancaro (Uhuru) zirvəsini fəth etmək Fidan üçün xüsusi önəm kəsb edib, həm də çox maraqlı olub:

- İlk gün yaşıl sıx sarmaşıqlar, banan ağacları, meymun, kərtənkələ, zəhərli bitkilərlə dolu meşələrlə irəlilədik. Hava olduqca isti idi. İlk gün meşədəki 2700 metr hündürlükdə yerləşən düşərgədə dincəldik.

Səhər isə 3720 m yüksəklikdə olan 2-ci düşərgəyə tərəf yola düşdük. İndi hava sərin idi. Sıx meşələri çöllük əvəzləmişdi. Quru bitkilər, iri-li-xırdalı daşlar, çöl siçanları, ilanlar, buqələmunlar qaçışan uzun yollar... Bu düşərgədə də gecələdikdən sonra, səhər sonuncu düşərgəyə yola düşdük.

Artıq çöllük sahə səhra və quraq ərazilərlə əvəz olmuşdu. Yolda günvurmadan halım qarışdı. Məndə başgicəllənmə, başağrısı başlamışdı. 4700 metr hündürlükdə yerləşən düşərgəyə çatanda hamımızın vəziyyəti pisləşdi. Şiddətli başağrısı keçmək bilmirdi. Oksimetrdə mənim oksigen səviyyəm 64 göstərirdi. 5 ağrıkəsici dərman qəbul etdikdən sonra başağrım axşama doğru azalmağa başladı.

Amma tək problem bu deyildi. Hipoksiya səbəbilə mental sıxıntılar da özünü göstərirdi. Özümü tavanı olmayan hündür həbsxanada hiss edirdim. Nə edəcəyimi bilmirdim, sadəcə burdan qurtulmaq haqda düşünürdüm. Vəziyyət o həddə çatmışdı ki, özümə aid ən adi məlumatları xatırlaya bilmirdim...

...Bir gün düşərgədə qaldıqdan sonra, gecə zirvəyə doğru yola düşdük. Çox qəribə idi, yolu çox rahat gedirdim. Səhər tezdən zirvəyə çatdıq. Geri qayıdanda bizi yolda musson yağışı qarşıladı.

Beləcə, bu səfəri 4 mövsüm yaşayaraq tamamladıq.

**Qabil ABDULLAYEV**

Tədqiqatçı tələbə

# Gənc tədqiqatçının elmi işləri dəfələrlə mükafatlandırılıb

**Rubrikamızın bu dəfəki qonağı Səfərli Həmid Xaqani oğludur. O, 23 yanvar 2006-cı ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub. 4 yaşında I sinfə getdiyi Goranboy rayon 2 saylı tam orta məktəbi 2021-ci ildə bitirərək, 15 yaşında 601.9 balla Azərbaycan Tibb Universitetinin tibb ixtisasına dövlət sifarişi ilə qəbul olunub. Hazırda II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsidir.**



Həmid universitetdə təhsilə başlayandan həm də Tələbə Elmi Cəmiyyətinin üzvüdür. 2022-23-cü tədris ilinin birinci semestrində II Müalicə-profilaktika fakültəsi TEC-in sədr müavini vəzifəsini, ikinci semestrində isə universitet üzrə TEC-in sədr müavini vəzifəsini icra edib. 2023-cü ildən Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin sədridir. Eyni zamanda ATU TEC şurasının sədr müavini, II Müalicə-profilaktika fakültəsinin şura üzvüdür.

Bir müddət Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədr müavini vəzifəsini icra edən Həmid, THİK-in nəzdində yaradılmış "Conversation Club"un qurucularından biridir.

Ali təhsil almaq üçün niyə məhz Tibb Universitetini seçdiyi barədə fikirlərini bizimlə bölüşən Həmid Səfərli tədqiqat işi ilə bağlı digər suallarımızı da cavablandırıb:

- Məktəbdə oxuyarkən dəqiq elmlərə daha çox marağım olub və bu da məni IV ixtisas qrupunu seçməyə sövq edib. Həkim olmaq arzusu isə məndə 12 yaşımda yaranıb və bu seçimdə anamın həkim olmasının rolu böyükdür. Həmçinin hər iki valideynimin elmə verdiyi yüksək dəyərin bacımın və mənim Tibb Universitetinə qəbul olmağımızdakı rolu əvəzsizdir və bunun üçün onlara borcluyuq.

**- Müəllimləriniz və tələbə yoldaşlarınız, ümumilikdə tələbəlik illəri barədə təəssüratlarınız. Tədris, imtahan prosesi sizi qane edirmi? Əgər fikriniz nəzərə alınsaydı, hansı təklifləri irəli sürərdiniz?**

- Müəllimlərim və tələbə yoldaşlarım ilə münasibətim hər zaman yaxşı olub. İşimlə əlaqədar olaraq həm öz fakültəm, həm də digər fakültələrin bir çox müəllim və tələbələrini yaxından tanıyıram. Bundan əlavə, digər universitetlərlə əlaqələr qururuq və bu da mənə onlarda aparılan tədris işləri, universitetlərinin elmi və ictimai həyatları haqqında məlumatlı olmağa şərait yaradır.

Əgər fikirlərim nəzərə alınsaydı, nəzəri dərslərlə bərabər praktik dərslərin aparılmasını və tələbələrin dərsdən sonrakı müddətdə asudə vaxtlarını praktiki fəaliyyət üçün klinikalarda keçirməsini təmin edərdim. Hazırda buna nail olan tələbələr olsa da, kütləvi hal almasının və universitet tərəfindən rəsmi aparılmasının tərəfdarıyam. İmtahan prosesindən narazı deyiləm, amma belə qısa vaxt aralığı ilə çoxsaylı imtahanların semestr sonunda hər bir fənn üzrə keçirilən vahid imtahanlarla əvəzlənməsinin tərəfdarıyam. İmtahan sistemində hələ də bir neçə boşluğun olduğunu düşünürəm. Bunun da növbəti tədris illərində öz həllini tapacağına əminəm.

**- Elmi araşdırmalara marağınız necə yarandı? Hansı uğurlarınız var?**

- Araşdırma aparmağa, yeni sahələrdə yeni biliklər öyrənməyə marağım hələ məktəb illərində yaranmışdı. Tibb Universitetinə qəbul olduqda isə, bu marağımı elm istiqamətinə yönəltməyə qərar verdim. Universitetdə oxuduğum müddətdə 2 startap layihəsi və 5 elmi-tədqiqat işi aparmışam. Onlardan biri "Məktəb çantalarının artıq çəkisinin kiçik məktəb yaşlarında olan uşaqlarda bel ağrılarının yaranmasına təsiri" mövzusunda idi. Bu işi İSF TEC-in konfransında təqdim edərək "Gələcəyin alimi" nominasiyası üzrə diplom qazanmışam. Digər elmi-tədqiqat işimi isə "Helikobakter Pylori ilə əlaqəli xronik nodulyar qastritin endoskopik-morfoloji xüsusiyyətləri" mövzusunda aparmışam və II MPF TEC-in konfransında 2-ci yeri tutaraq diplomla təltif edilmişəm. 2024-cü ilin may ayında hər iki elmi-tədqiqat işimi Naxçıvan Muxtar Respublikasında keçirilən "Tibb Tələbələri və Gənc Alimlərin Respublika Konfransı"nda uğurla təqdim etmişəm.

Digər 3 elmi-tədqiqat işimi 2025-ci ilin aprel-may aylarında fakültə konfranslarına təqdim edərək yüksək nəticə göstərdim və hər üç işim "Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyinə və Azərbaycan Tibb Universitetinin 95 illiyinə həsr olunmuş Tibb Festivalı"nda iştirak hüququ qazandı. Onlardan birini "Müasir gənclərin peşə seçimi, həyat keyfiyyəti və emosional vəziyyəti" mövzusunda apararaq İSF TEC-in konfransında "Ən aktual iş" nominasiyası üzrə diplom əldə etdim. "Peritonitlə ağırlaşmış eksperimental pankreonekrozlar zamanı peritoneal ekssudatın tərkibindəki proqnostik markerlərin endotoksikozun ağırlıq dərəcəsinə təsiri" mövzusunda digər elmi işim isə II MPF TEC-in konfransında birinci yerə layiq görüldü. "Seboreya dermatitinin patogenetik aspektləri və müalicəsinə fitoterapevtik yanaşma" adlanan beşinci işim Əczaçılıq fakültəsi TEC- in konfransında "Zeytun Pharmaseutical şirkəti tərəfindən seçilən iş" nominasiyası üzrə diplomla mükafatlandırıldı. Həmçinin bu tədqiqat işimlə Özbəkistanın Səmərqənd şəhərində keçirilən Səmərqənd Dövlət Tibb Universitetinin 95 illiyinə həsr olunmuş 79-cu Tibb Tələbələri və Gənc Alimlərin Beynəlxalq Konfransında çıxış edərək I yer və "RHETORİC" nominasiyası olmaqla 2 diplomla təltif edilmişəm.




2024-cü ilin 5-8 sentyabr tarixlərində Türkiyədə keçirilən "I Türk Dövlətləri Tibb Konqresinin II Beynəlxalq Forumu"nda "Healthy kids" adlı startap layihəmi uğurla təqdim etmişəm. Həmin ilin oktyabr ayında "XI Avrasiya uşaq həkimlərinin beynəlxalq konqresi"nə öz layihəmi təqdim edərək I yeri qazanmış, diplom və qızıl medalla təltif olunmuşam. Dekabr ayının 12-si "Tibb Universitetinin tələbələri arasında birinci İDEATON" adlı müsabiqədə iştirak edərək diplomla mükafatlandırılmışam.



Bunlarla yanaşı, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin "First Aid Trainer" təlimini uğurla başa vurmuşam. Həmçinin bir çox yerli və beynəlxalq konfrans və təlimlərdə həm təşkilat komitəsinin tərkibində, həm də qonaq qismində iştirak etmişəm.

**- Məktəb çantaları ilə bağlı tədqiqat işinizin tezisləri maraqlıdır...**

- "Məktəb çantalarının artıq çəkisinin kiçik məktəb yaşlarında olan uşaqlarda bel ağrılarının yaranmasına təsiri" mövzusunda apardığım tədqiqat işi üçün 330 ibtidai sinif şagirdi arasında valideynlərinin və məktəb psixoloqunun iştirakı ilə sorğu keçirdik. Daha sonra əldə edilən nəticələri beynəlxalq normalarla müqayisə etdik və göstəricilərin həddindən artıq yüksək olduğunu, məktəblilərdə hələ ibtidai sinifdən bel ağrılarının yaranmağa başladığını aşkar etdik. Bu da bizi problemin həllini araşdırmağa yönləndirdi. Beləliklə, məlumat kitabçalarımızı dərc edib bunu məktəblilər və valideynlər arasında payladıq və sonra tövsiyələrimizi təqdim etdik. Məhz bunun üçün hazırda davam edən startap layihəmi hazırladım və düşünürəm ki, bu layihə məktəbliləri nəinki mövcud problemdən qoruyacaq, həmçinin onları mobil cihazlardan səmərəli istifadəyə yönəldəcək. Bu da məktəblilərin ümumi sağlamlığını qorumaq və onlara profilaktik nəzarət etmək işinə kompleks şəkildə öz töhfəsini verəcək.

**- Gələcək hədəfləriniz nədir? Tibbin hansı sahəsinə daha çox maraq göstərirsiniz?**

- Universiteti bitirdikdən sonra Azərbaycanda Ümumi cərrahlıq ixtisası üzrə rezidenturaya qəbul olub sonrakı təhsilimi də elə bu istiqamətdə davam etdirmək istəyirəm. İnanıram ki, bu sahədə uğur qazanacağam.

**Arif MƏMMƏDLİ**

# "Tarixə düşən fəaliyyətlər" kitabı işıq üzü görüb

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən Şəxsi İnkişaf və Psixoloji Təlimlər Klubunun bir illik fəaliyyətinə həsr olunmuş kitab işıq üzü görüb. "Tarixə düşən fəaliyyətlər" adlı kitabda klubda bu müddət ərzində keçirilən psixoloji təlimlər, seminar və maarifləndirici tədbirlər, komanda inkişafı proqramlarına dair məlumat verilir. Kitabın səhifələrində tələbələrin xəyalları, fəaliyyətləri barədə də məlumat tapmaq mümkündür.**




Kitabın müəllifləri Hərbi tibb fakültəsinin IV kurs tələbəsi, eyni zamanda klubun təsisçisi və sədri Nəriman İskəndərov, həmin klubun idarə heyətinin üzvü, eyni fakültənin II kurs tələbəsi Rəşid Qasımlıdır. Kitabda qeyd edilib ki, klubun yaradılmasında əsas məqsəd gəncləri özününkişafa, psixoloji maarifə və sosial təşəbbüskarlığa təşviq edən bir mühit yaratmaq, tələbələri əhatə edən bir platforma qurmaqdan ibarət olub. Bu qurumun fəaliyyəti sayəsində fərqli fakültələrdə təhsil alan gənclər arasında özünüifadə, liderlik, ictimai iştirakçılıq və psixoloji dayanıqlıq kimi sahələrdə yeni imkanlar yaradılıb.

Kitabın müəllifləri klubun yaranması və fəaliyyətinin dəstəklənməsinə şərait yaratdığı üçün Azərbaycan Tibb Universitetinin rəhbərliyinə, bütün tədbirlərin təşkili və texniki dəstəyinə görə, Tələbə Həmkarlar İttifaqı Komitəsinə, Tələbə Gənclər Təşkilatına, klubun ideya və təşkilati bazasını formalaşdırdığı üçün bütün idarə heyəti üzvlərinə və fəal tələbələrə təşəkkürlərini bildiriblər.

# Xərçəng daha erkən aşkarlana biləcək

**Böyük Britaniyanın Varvik Universitetinin alimləri xərçəngin yayılmasını daha asan müəyyən etməyə imkan verən almaz tərkibli cihaz yaradıblar.**



Qeyd olunub ki, bu texnologiya hazırda xəstəxanalarda istifadə olunan radioaktiv markerlərin və boyaların zərərsiz alternativinə çevrilə bilər. Həkimlər, adətən, xərçəngin limfa düyünlərinə çatıb-çatmadığını öyrənmək üçün testlərə güvənirlər. Limfa düyünləri bədəndə zərərli maddələri süzən toxuma sahələridir. Nəticələr cərrahiyyə və sonrakı müalicə qərarlarına birbaşa təsir edir. Bu cihaz isə şişə yeridilən və dəmir oksid nanohissəciklərindən ibarət olan maqnit markerini aşkar edə bilir. Marker bədəndə xərçəng hüceyrələri ilə birlikdə hərəkət edərək, onların limfa düyünlərinə çatıb-çatmadığını üzə çıxarır.

**Allah rəhmət eləsin!**

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Nailə İbrahimovaya əzizi **Kənan İbrahimovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0014
Sayı 800